# İNSAN ALVERİNİN ARADAN QALDIRILMASI VƏ ONA QARŞI MÜBARİZƏ HAQQINDA BRÜSSEL BƏYANNAMƏSİ

XXI əsrin böyük problemi olan insan alverinin aradan qaldirilmasi və ona qarsi mübarizə ilə bağlı Avropa Konfransı 2002-ci ilin 18-20 sentyabr tarixlərində Avropa İttifaqına üzv, üzvlüyə namizəd və ona qonşu dövlətləri, eləcə də, Rusiya, Ukrayna və MDB dövlətlərini, sabitləşmə və birləşmə prosesi dövlətlərini, həmçinin, ABŞ, Kanadanı, region ölkələrini, beynəlxalq təşkilatları (BT), qeyri-hökumət təşkilatlarını (QHT) və Avropa İttifaqı qurumlarını bir araya topladı. Yuxarıda qeyd olunan dövlət və təşkilatlardan 1000-dən artıq nümayəndə bu Konfransda iştirak etdi.

İnsan alverinin və uşaqların cinsi istismarının aradan qaldirilmasi və ona qarsi mübarizə üzrə fəaliyyətin maliyyə dəstəklənməsi üçün hazırlanmış STOP II proqramı çərçivəsində Avropa Komissiyasının təşəbbüsü ilə bu Konfrans, Avropa Parlamenti və Avropa Komissiyasının sıx əməkdaşlığı ilə Beynəlxalq Miqrasiya Təşkilatı (BMiT) tərəfindən təşkil edilmiş, çoxsaylı maraqlı tərəflər və iştirakçılar, xüsusən, hazırlıq görüşlərinin keçirildiyi ölkələrin hökumətləri tərəfindən dəstəklənmişdi.

Konfransın əsas məqsədi insan alveri sahəsində mövcud tendensiyalar və azadlıq, təhlükəsizlik və ədalət sahələrində fundamental dəyərlərimizi və nailiyyətlərimizi məhv etməklə hədələyən bu əsaslı problemin həllində avropa siyasəti ilə bağlı informasiya mübadiləsi imkanlarının təmin edilməsi idi.

Konfrans, insan alverinə qarsi mübarizə ilə bağlı hökumətlər və təşkilatlar arası əməkdaşlığın təkmilləşdirilməsi məsələləri üzrə birgə layihələr sahəsində qanunverici təşəbbüslər, çoxsaylı seminar, konfrans, görüşlər və avropa səviyyəsində və ondan kənarda bu siyasətin icrası də daxil olmaqla özünə qədər toplanmış geniş təcrübəyə əsaslanırdı. Bu sahədə bir neçə illik çoxtərəfli və ardıcıl siyasətin işlənib hazırlanmasından sonra bu Konfrans insan alverinə qarşı mübarizədə daha bir addım oldu. O, bu prosesə cəlb olunmuş hər kəsi ardıcıl və koordinasiya edilən avropa yanaşmasında doğan qabaqcıl təcrübədən bəhrələnmək sahəsində səyləri artırmaqla təxirəsalınmaz və köklü tədbirlər görməyə çağırdı.

İnsan alveri, məcburi cinsi və qul əməyinə yaxın şərtlər daxilində əmək istismarı, icbari təzim və uşaq cinayəti, habelə, ev quldarlığını özündə ehtiva edən çirkin və təhrikedici bir hadisədir. Bu hadisələr belə zorakılığın qurbanlarının, əsas hüquqlar haqqında beynəlxalq qanunvericilik və Avropa Xartiyası ilə təsbit edilmiş insan hüquqlarının ciddi pozulmasıdır. İnsan alveri, çox zaman yuyulan və qanuni bazarlara qoyulan az məhkəmə və əmlakın müsadirəsi riski daşıyan böyük qanunsuz gəlirlər gətirən transmilli əlbir cinayət fəaliyyətinin tərkibi olaraq tanınmışdır.

Konfrans, yerli, regional və hökumət səviyyələrində təşkilatlar da daxil olmaqla, beynəlxalq birlik, MQHT, BT, DAT və Avropa İttifaqı (Aİ) təşkilatlarını bütün çirkin cəhətləri ilə beynəlxalq cinayətkarlığın hərəkətlərinə qarşı hər cür tədbirlər görməyə və milli, avropa və beynəlxalq səviyyədə bu hallara qarşı birmənalı və hərtərfli mübarizə aparmağı təmin etməyə, eləcə də, aid bütün tərəflərin nümayəndələrinin ardıcıl və çoxtərəfli və effektli kordinasiya edilən siyasətini işləyib hazırlamağa çağırmışdır. Belə birmənalı müqavimət, BMT-nin insan hüquqları üzrə Ali Komissarlığı tərəfindən hazırlanmış Prinsiplər və Əsasnamələr kimi insan hüquqlarına uyğun olmalıdır. O, uşaqların maraqlarını nəzərə alaraq uşaq alverinə qarşı mübarizəyə və uşaqların hüquqlarının qorunması üzrə beynəlxalq tələblərin qorunmasına xüsusi əhəmiyyət verməlidir.

İnsan alverinə qarşı mübarizənin çoxtərəfli avropa strategiyası, insan alverinin qurbanlarının ortaya çıxdığı, tranzit və son təyinat ölkələri, insancəlbi agentləri, qurbanların nəqli ilə məşğul olanlar, istismarçılar, digər iştirakçılar, müştərilər və faydalananlar da daxil olmaqla insan ticarətinin bütün xəttlərini əhatə etməlidir. Bundan başqa, əhalinin miqrasiyasının idarə olunması üzrə daha geniş strategiyanın hazırlanması insan alverinin azaldılmasında və ortadan qaldırılmasında əhəmiyyətli rol oynaya bilər. İnsan alverinin, qızlar da daxil, əsaslarının işsizlik, yoxsulluq, gender bərabərsizliyi, sosial və mədəni vəziyyətlər, cinsi xidmətlərə tələbat, ucuz əmək və istismarın digər formalarının olduğu səbəbləri ona qarşı uzunmüddətli və təsirli mübarizə cəhdlərinin ilk sırasında yer almalıdırlar. İnsan alverinə qarşı mübarizəyə köklü yanaşma cinsi istismar, əmək, xüsusən, uşaq əməyi və mütilik də daxil olmaqla, istismarın bütün formalarını özündə birləşdirməlidir.

Konfransa hazırlıq və onun gedişi dövrünün uğurlarının çulğalaşdığı ruhda hazırlanmış Brüssel Bəyannaməsi, insan alverinin aradan qaldirilmasi və ona qarsi mübarizə üçün avropa və beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi, konkret tədbirlər, standartlar, qabaqcıl təcrübə və mexanizmlərə doğru istiqamətlənmişdir.

Sadiq hökumətlərin, beynəlxalq təşkilatların və QHT-lərin birliyi, insan alverinə qarşı mübarizə hallarının ortdan qaldırılması, qurbanların müdafiə olunması və onlara köməklik göstərilməsi, insan alverinin sürətli və davamlı azalmasına nail olmaq dan ötrü məhkəmə və polis orqanları arasında qarşılıqlı əlaqələr sahəsində konkret tədbirlər qəbul etməyə və əməkdaşlığın gücləndirilməsinə çağırmışdır.

Yuxarıda qeyd olunan ölkələrin, təşkilatların və bölmələrin nümayəndələri, Brüssel Bəyannaməsinə Əlavələrdə verilmiş tövsiyyələr layihəsi, standartlar və qabaqcıl təcrübələr əsasında insan alverinin aradan qaldırılması və ona qarşı mübarizədə özlərinin qətiyyətlərini qeyd etmişlər.

**29 noyabr 2002-ci il,**

**14981/02.**